Azərbaycan.- 2021.- 19 mart. S. 8.

# Siyasi dialoq prosesi uğurla davam edir

Son 3 ildə Azərbaycanda həyata keçirilən islahatların əsas özəlliyi ondan ibarətdir ki, dəyişikliklər məhdud sfera ilə yekunlaşmayıb və cəmiyyət həyatının bütün sahələrini əhatə edib. İslahatların nəticəsi kimi siyasi sferada da pozitiv yeniliklər baş verib. Xüsusən hakimiyyətlə müxalifət arasında yeni siyasi dialoq mühitinin yaranması, partiyaların təklif və təşəbbüslərinin dinlənilməsi, parlament idarəçiilyində müxalifət təmsilçilərinə yer verilməsi, yeni partiyaların qeydə alınması siyasi islahatların uğurla həyata keçirildiyini göstərir.



Milli Məclisin deputatı, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Qüdrət Həsənquliyevlə söhbətimiz də bu barədədir.

Siyasi islahatların başlandığı müddət ərzində çox dəyişikliklərin baş verdiyini deyən Qüdrət Həsənquliyev bununla bağlı bir neçə misal göstərdi: "Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra ilk dəfə idi ki, parlamentdə təmsil olunan siyasi partiyaların təmsilçiləri rəhbər vəzifələrə irəli çəkildilər. Milli Məclis sədrinin müavini, komitə sədrlərinin müavinlərinin bir neçəsi müxalifətçi deputatlardan ibarətdir. Bunun özü də ölkədəki yeni siyasi fiqurasiyanın mühüm göstəricisidir".

BAXCP sədri Prezident Administrasiyasında Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin yaradılmasını da təqdir etdi. Onun sözlərinə görə, bu müddətdə şöbənin müdiri Ədalət Vəliyevin siyasi partiyaların rəhbərləri ilə keçirdiyi görüşlərdən sonra respublikamızda siyasi dialoq yeni mərhələyə qədəm qoyub: "Hazırda siyasi partiyalarla Prezident Administrasiyası arasında konstruktiv əməkdaşlıq mövcuddur. Münasibətlərin bu cür qurulması, partiyaların mövqelərinin, təşəbbüslərinin dinlənilməsi siyasi sistemin daha dayanıqlı olmasına yol açacaq. Ümid edirəm ki, bu, gələcəkdə proporsional seçki sisteminin bərpasına, parlamentdə fraksiyaların yaranmasına gətirib çıxara bilər. Bütövlükdə, siyasi dialoq prosesi başlayıb və uğurla davam etməkdədir. Prezident İlham Əliyev də çıxışlarında bildirib ki, ölkəmizdə bütün sahələrdə, o cümlədən siyasi sferada islahatlar gedir".

Qüdrət Həsənquliyev Yeni Azərbaycan Partiyasında baş verən dəyişiklikləri yüksək dəyərləndirdi. Onun sözlərinə görə, YAP-ın rəhbərliyində baş verən dəyişikliklər, Mehriban Əliyevanın birinci müavin təyin olunması, İdarə Heyətinin tərkibinin yenilənməsi, Veteranlar Şurasının yaradılması digər siyasi partiyalara da stimul verəcək və siyasi sistem daha da canlanacaq. Partiyaların rolu cəmiyyətin rifahı və inkişafı üçün çox əhəmiyyətlidir. Bu baxımdan baş verən pozitiv yeniliklər göstərir ki, siyasi sistemdə partiyaların rolu daha da artacaq. Bundan da faydalanan sözsüz ki, Azərbaycan dövləti olacaq.

Bu gün Azərbaycan dövlətinin prioritetlərindən biri işğaldan azad olunmuş ərazilərimizin yenidən qurulmasıdır. Qüdrət Həsənquliyevlə bu barədə, Böyük Qayıdış proqramının icrası ilə də bağlı söhbətləşdik. BAXCP sədri qeyd etdi ki, Prezident İlham Əliyevin azad olunmuş ərazilərə səfərləri, başlanmış quruculuq işlərini öz nəzarətində saxlaması olduqca mühüm əhəmiyyət kəsb edir. "Əminəm ki, Qarabağ tezliklə yenidən Azərbaycanın dilbər guşələrindən birinə çevriləcək. Sadəcə, istərdik ki, işğaldan azad olunan ərazilərdə məskunlaşma ilk növbədə Ermənistanla sərhəd bölgələrdən və Qarabağda ermənilər yaşayan kəndlərin qonşuluğundan başlasın. Çünki ermənilər görməlidirlər ki, Şuşa, Hadrut necə yenidən qurulur, bərpa edilir, abadlaşdırılır. Ermənilər görməlidirlər ki, Azərbaycan dövləti doğma yurdlarına qayıdan vətəndaşlarının məşğulluğunu necə təmin edir, onlar üçün necə yüksək həyat şəraiti qurur".

BAXCP sədri hesab edir ki, Qarabağın yenidən qurulması yalnız dövlətin maliyyə imkanları hesabına həyata keçirilməməlidir. Yerli iş adamları Qarabağda müxtəlif biznes layihələrin həyata keçirilməsinə cəlb olunmalıdırlar. Dövlət onlara kredit də ayıra bilər. Xarici ölkələrdən də investorlar cəlb edilməlidir ki, istehsal müəssisələri yaratsınlar. Partiya sədrinin işğaldan azad olunmuş ərazilərdə inşa olunacaq evlərlə də bağlı təklifləri var: "Əgər azad olunmuş ərazilərdə evlərin hamısını dövlət özü tiksə, bunun üçün çox vaxt lazım olacaq. Fikrimcə, azad olunmuş ərazilərdəki kənd yerlərində insanlara pul vermək lazımdır ki, gedib öz evlərini tiksinlər".

Qüdrət Həsənquliyev Ermənistandakı revanşist qrupların üçtərəfli bəyanata qarşı çıxmalarına da münasibət bildirdi. "Hazırkı şəraitdə onlar Azərbaycanla yeni müharibə barədə düşünə bilməzlər. Çünki özləri də bilirlər ki, bu, Ermənistanın tamamilə məhvinə gətirib çıxarar. Revanistlərin məqsədi sadəcə yaranmış vəziyyətdən istifadə edib baş nazir Nikol Paşinyanı devirməkdir. Bunu da belə əsaslandırırlar ki, guya Paşinyan münasibətləri zədələdiyinə görə Rusiya Ermənistana dəstək verməyib. Amma revanşistlərin özləri də bildirirlər ki, üçtərəfli bəyanatdan imtina etməyəcəklər. Çünki həmin sənədi imzalayanların biri Rusiya Prezidentidir. Vladimir Putin bildirib ki, üçtərəfli razılaşmadan imtina intihara bərabərdir. Ona görə Ermənistanda heç kim Azərbaycanla yeni müharibəyə başlamağı risk etməz. Azərbaycan yerində dayanmayıb və müharibə başa çatsa da, hərbi xərclərini nəinki azaltmadı, hətta artırdı. Ölkəmiz ən müasir silahlar almaqda davam edəcək. Bu sahədə qardaş Türkiyənin inkişat etmiş hərbi sənaye kompleksinin ən müasir silahları ordumuzun arsenalına cəlb ediləcək. Prezident İlham Əliyevin də dediyi kimi, Türkiyənin gücü bizim gücümüzdür. Bu baxımdan düşünmürəm ki, Ermənistan cəsarət edib Azərbaycana qarşı yenidən işğal siyasəti yürütmk fikrinə düşsün".

BAXCP sədri onu da dedi ki, regionumuzda yaranmış yeni reallıqdan irəli gələn əməkdaşlıqla bağlı birdən-birə hər şeyin rəvan gedəcəyini düşünmək doğru deyil! "Düşünürəm ki, zamanla bu əməkdaşlıq yaranacaq, genişlənəcək və onda sərt hərbi ritorikadan da imtina olunacaq. Ermənilər də başa düşəcəklər ki, başqasının əlində alətə çevrilməklə yaşamaq mümkün deyil və ölkələrinin gələcəyi regionda qonşularla normal və sivil münasibətlərin qurulmasından keçir".

***Söhbəti yazdı:***
***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***